# İnklüziv təhsildə sosial nailiyyət




**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ**

**Musayeva İlahə İlham qızı**





BÜTÜN UŞAQLAR ÜÇÜN BƏRABƏR İMKANLAR YARADIR
ÇATIŞMAZLIQLARA DEYİL, MÖVCUD POTENSİALIN AŞKARLANMASINA FOKUSLANIR
BÜTÜN UŞAQLAR ÖZ HƏMYAŞIDLARI İLƏ BƏRABƏR MÜHİTDƏ TƏHSİL ALIR
UŞAQLAR ARASINDA XOŞ MÜNASİBƏT YARANIR
NİYƏ İNKLÜZİV TƏHSİL?
FƏRQLİ EHTİYACLARA CAVAB VERƏ BİLMƏK ÜÇÜN MÜƏLLİMLƏR PEŞƏKARLIĞINI ARTIRARAQ DAHA DA TƏKMİLLƏŞİR
MƏKTƏBİN MÜYƏSSƏRLİYİNİ TƏMİN ETMƏK ÜÇÜN İNFRASTRUKTUR TƏKMİLLƏŞDİRİLİR
UŞAQLAR CƏMİYYƏTƏ UYĞUNLAŞIR
İNKLÜZİV CƏMİYYƏTİN FORMALAŞMASINA GƏTİRİR

# İnklüziv təhsil bizə nə vəd edir ?

- Bərabər şəraitdə keyfiyyətli və ödənişsiz təhsil;
- İnsanlar arasında məhdudiyyət və fərq qoymadan bərabərhüquqlu kommunikasiya imkanları;
- Digər uşaqlarla bərabər əsasda cəmiyyətə inteqrasiya etmək imkanı;
- Öz ehtiyaclarına uyğunlaşdırılmış əlçatan, maneəsiz bir mühit;
- Təhsil dövründə və sonrakı həyatda psixoloji, sosial dəstək ;
- Ünsiyyət və sosiallaşma bacarıqlarının inkişafı ;



# DÜNYA TƏCRÜBƏSİNDƏ İNKLÜZİV TƏHSİL

- İnklüziv təhsil praktikasının təmin edilməsi sahəsində ən mükəmməl qanunvericiliyə sahib ölkələr Kanada, Danimarka, İslandiya, Hindistan, Malta, Niderland, Portuqaliya, Norveç, Cənubi Afrika, İspaniya, İsveç, Uqanda, Amerika Birləşmiş Ştatları və İngiltərədir.

Amerikada 1960-cı ildən insan haqları hərəkatı adı ilə sosial təhsil hərəkatı başladı. 1975-ci ildə "Təhsil qanunu" qəbul edildi. 95% uşaq yaşadığı yerin yaxınında təhsil alır .
Finlandiyada 1975 ildən bərabərhüquqlu təhsil sisteminə keçilmişdir. 1990-cı ildən hər kəs üçün təhsil hərəkatı təhsilin inkişafına şərait yaradıb. Yerli idarəetmə orqanlarına kurikulumlarını hazırlamaq imkanı verilmişdir.
Avropa təcrübəsi: əsas məsələ  uşağın deyil, cəmiyyətin ona hazırlığıdır.1960-cı ildən əlilliyin sosial modeli adlı yanaşma formalaşır.
Yaponiya  1990-cı ildə Təhsil haqqında qanuna əsasən bərabərhüquqlu təhsilə keçmişdir. Prossesə bağçalardan başlamışdır.
İspaniya 1980-ci ildə "Əlillərin sosial inteqrasiyası qanunu", "Xüsusi təhsilin tənzimlənməsi" haqqında qanun qəbul olunmuşdur.
Böyük Britaniya  2001-ci ildə "Xüsusi təhsil ehtiyacları və əlillər haqqında qanun"un qəbulu ilə valideynlər üçün xüsusi xidmətlər yaranıb.
Litvada 2014-2020-ci illər fəaliyyət planı hazırlanmış, "pul uşağı izləyir", "şagirdin bel çantası"layihələri uşaqların maddi təminatını yaxşılaşdırmaq üçündür. Kənd məktəbliləri üçün "Sarı avtobus" layihələri özünü doğruldub.
Avstraliyada müəllimlər fərdi hazırladıqları dərs proqramları vasitəsilə dərs keçirlər.

Azərbaycanda ilk dövlət proqramı 2015-ci il yanvarın  19-da  qəbul olunub, 2016-cı ildən inklüziv siniflər təşkil olunmuşdur..Ölkəmizdə 65 minə yaxın sağlamlıq imkanları məhdud uşaq var.
12min nəfər -təhsilə cəlb olunmuşdur.
1105 nəfər -xüsusi məktəblərdə
2664 nəfər-internat məktəblərində
7750 nəfər- ev şəraitində
268 nəfər - inklüziv təhsilə cəlb olunmuşdur (ARTİ, 2021)

Sumqayıt şəhərində 19, 25, 21, 4 saylı tam orta məktəblərdə inklüziv siniflər var.



## Məhdud imkanlı uşaqların təhsil modelləri

Tibbi model-Seqresiya (təcrid olmaq)-yalnız əliliyi olan uşaqlar üçün xüsusi məktəb və ya xüsusi sinif otağı
Normalaşdırma modeli-İnteqrasiya - sağlamlıq imkanları məhdud şagirdlərin ümumi təhsildə iştirakı, lakin prossesə daxil edilməsi üçün kifayət qədər imkan və dəstəyin olmaması.
Sosial model-İnklüziya- bərabərhühuqlu təhsil, imkan və şəraitin olması.
Ayrı-seçkiliyə , əlilliyi olan şagirdlərin təcrid olunmasına son, onlar üçün ibtidai və ali təhsilin əlçatan olması, şagirdlərin öyrənmələrini təmin etmək üçün praktiki dəstək göstərilməsi, fərdi təlim planlarının olması, əlilliyi olan uşaqlara brayl və işarə dilini öyrənmə imkanlarının yaradılması, sinif otağının təşkili, xüsusi təlim keçmiş müəllimlərin fəaliyyət göstərməsi, köməkçi texnologiyalardan istifadə .
İnklüziv təhsilin təşkilində iştirak edən bütün tərəflər (müəllimlər, korreksiyaedici pedoqoqlar , məktəb psixoloqları, digər məktəb heyəti və valideynlər) arasında əməkdaşlığın qurulması

# MƏKTƏB VƏ BAĞÇALARDA YARANAN PROBLEM

- Uşaqların inklüziv, xüsusən, fiziki əngəlli uşaqlardan qorxması.
- İnklüziv uşaqların dərsin mərhələlərinin yerinə yetirilməsinə mane olması.
- Sağlam uşaqların mühafizəkar valideynləri çox vaxt sağlamlıq imkanları məhdud uşaqların öz övladı ilə oxumasına qarşı çıxırlar.



# İNKLÜZİV UŞAQLARIN VALİDEYNLƏRİNİN FİKİRLƏRİ

- 1. Cəmiyyət tərəfindən uşaqların birmənalı qarşılanmaması.
- 2. Məktəb tərəfindən dəstəyin olmaması
- 3. Məktəb infrastrukturunun bu cür təhsil üçün uyğun olmaması
- 4.Cəmiyyətin qurduğu maneələrlə dolu sistem
- 5. İnklüzivliyin sosial risklərinin aradan qaldırılması istiqamətində əlçatan mühitin olmaması

# MƏKTƏB MÜƏLLİMLƏRİNİN QARŞILAŞDIĞI PROBLEMLƏR

- 1. İnklüziv uşaqlar digər uşaqların diqqətini yayındırır.
- 2 .İnklüziv uşaqlarla dərsin mərhələlərini yerinə yetirmək çətindir.
- 3. İnklüziv siniflərdə orta və yüngül  əngəl dərəcəli uşaqlarla yanaşı ağır dərəcəli uşaqlar da təhsil alır.
- 4. Yardımçı kurator, psixoloq, loqoped və s. olmaması
- 5. Məktəblərdə müvafiq avadanlıq və infrastruktur yoxdur
- 6. Valideynlər uşaqların təhsil həyatında yaxından iştirak etmək istəmirlər.



# PSİXOLOQLARIN TƏKLİF VƏ İRADLARI

1. Digər uşaqların diqqət və reaksiyası fiziki və intellektual inkişaf səviyyəsi məhdud olan uşaqların inkişafını ləngidir.

2. Aşırı mərhəmət hissi qıcıq reaksiyası oyadır, aqressiya yaradır.

3. Həsəd hissi mənəvi keyfiyyətlərinə təsir edir.

4. Hər əngələ görə ayrılan qruplarda xüsusi proqramlar vasitəsilə keçilən dərslər onların inkişafına daha yaxşı təkan verə bilər.

5. Valideyn və müəllimlər xüsusi təlim almalıdırlar.

6. İnklüziv uşaqlara dərslər onlar üçün hazırlanmış xüsusi proqramlar vasitəsilə keçilməlidir.

# İNKLÜZİV UŞAQLARLA SÖHBƏT

- Tural İbrahimov - SDU tələbəsi : Fiziki məhdudiyyətli uşaqların qayğıya ehtiyacı var, güzəştə yox. Güzəşt şəxsin özgüveninə  və təhsilinə mənfi təsir edir. Əsas məqsəd bu cür uşaqları cəmiyyətə qazandırmaqdır. Əlilliyi olan şəxslərin digər şagird və tələbələrlə eyni münasibətdə olmasını, digər şəxslərə olduğu kimi, əlilliyi olan şəxslərə qarşı hörmət və onların da istedadlarının nəzərə alımasını təklif edirəm. Hər birinin müsbət keyfiyyətlərinə söykənməklə onların potensialını üzə çıxarmış olacaqsınız.
- Allahverdi Əhmədov- SDU tələbəsi: İstedadı üzə çıxartmaq o qədər də çətin məsələ deyil. Yalnız cəhd etmək işin əsas hissəsini görmək deməkdir. Siz təki cəhd edin, əlilliyi olan şəxslər öz istedadlarını sizə anlada bilər. Yetər ki, siz onlara qarşı ilk cəhd edən tərəf olun. Hər kəsə eyni münasibət göstərin, biz fərqli deyilik. Göstərilən xüsusi münasibət bizə mənfi təsir edir.



Məhəmməd Abışov -Azərbaycan milli konservatoriyası qarmon ixtisası:

Şükürlər olsun ki, mənim orta məktəb və ya universitet baxımından heç bir problemim yoxdur və hər birindən də olduqca razıyam. Təkliflərimə gəlincə, bütün əlilliyi olan şəxslərin digər şagird və tələbələrlə eyni münasibətdə olmasını, digər şəxslərə olduğu kimi, əlilliyi olan şəxslərə qarşı hörmət və onların da istedadlarının nəzərə alımasını təklif edirəm. Hər birinin müsbət keyfiyyətlərinə söykənməklə onların istedadını üzə çıxartmaq o qədər də çətin məsələ deyil. Yalnız cəhd etmək işin əsas hissəsini görmək deməkdir. Siz təki cəhd edin, əlilliyi olan şəxslər öz istedadlarını sizə anlada bilər.

Sənur Yaqubov- Xəzər universiteti Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası: Fiziki məhdudiyyətli biri olaraq əminliklə deyə bilərəm ki, sadəcə pis münasibət deyil, həddən artıq qayğı da fiziki məhdudiyyətli şəxlərə pis təsir edir, onların özgüvəninə, özünə inamına böyük zərbə vurur. Tələbəlik həyatıma gəldikdə, qrup yoldaşlarım çox maraqlı və yaxşı insanlar idi. Və onlar heç vaxt mənə bir görmə əngəlli kimi davranmayıblar. Universitetdə çox sərbəst şəkildə gəzirdim, universitetin hər yerini tanıyırdım, univerisitetdən evə və evdən universitetə gedib-gələ bilirdim, problem yaşamırdım. Universiteti fərqlənmə bitirdim.



# Nəticə



- 1. İnklüzivlik anlayışının mahiyyəti yanlış dərk olunur.
- 2. Məktəblərdə bu sahə üzrə  ixtisaslı kadrlar çox azdır. - xüsusi qayğıya ehtiyacı olan uşaqları müşayiət etmək üçün hazırlanmış pedaqoqlar, müəllimlər, psixoloqlar, defektoloqlar, loqopedlər yoxdur.
- 3. Qiqiymətləndirmədə əksər hallarda obyektiv yanaşma yoxdur.
- 4. Ənənəvi tədris metodlarına alışmış müəllimlər öz prinsiplərini dəyişməyə hazır deyillər və ya öyrəndiklərini əksər hallarda tətbiq etmirlər.
- 5. İnklüziv təhsilə ehtiyacı olan uşaqların valideynləri  kifayət qədər məlumata malik deyil. Nəticədə uşaqlar yalnız orta təhsil alır və təhsillərini davam etdirmək imkanına malik olmurlar.

6. Dərslər Universal Öyrənmə Dizaynı əsasnda qurulmur.

7. İnklüzivliyin sosial risklərinin aradan qaldırılması istiqamətində əlçatan mühitin yaradılması üçün sağlamlıq imkanları məhdud uşaqların özləri ilə yanaşı valideynlərinin, eyni zamanda sağlam uşaqların da valideynlərinin psixoloji dəstəyə ehtiyacı var .

8. Bu sahədə uğurlu təcrübəyə malik ölkələrdən nümunə götürülməlidir.

9. Müxtəlif strategiya və davranış taktikaları müzakirə və təhlil olunmalıdır.

10. Məhsuldar strategiyaların müəyyən edilməsi və arqumentasiyası vacibdir.

11. İnklüziv uşaqlarla işləyən müəllimlərdə təməl bacarıqlar olmalıdır.

Əldə olunan nailiyyətlərdən ən önəmlisi bu uşaqların cəmiyyət içərisində sərbəst gəzməyidir ki, daha əvvəlki kimi yarqılanmırl




Sevgi bizi birləşdirən dəyərdir.

# İZLƏDİYİNİZ ÜÇÜN TƏŞƏKKÜR EDİRƏM!